# Rayon təhsil işçilərinin sentyabr konfransı

## Fəttah Heydərov,
## Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı

**Əziz dostlar,**
**Hörmətli müəllimlər!**

Sizin hamınızı qarşıdan gələn yeni dərs ili münasibətilə təbrik edir, hamınıza bu dərs ilində də yeni-yeni uğurlar arzulayıram. Bu ilki konfrans bir neçə xüsusiyyəti ilə fərqlənir. Təxminən 5-10 il öncə bizim sizinlə bu cür yüksək zövqlə ərsəyə gətirilmiş zalda tədbir keçirmək imkanımız yox idi. Hələ keçən il biz sizinlə birlikdə konfransımızı yeni tikilmiş rayon mədəniyyət mərkəzində keçirmişdik. Həmin mərkəzdə 400-ə yaxın nümayəndənin yerləşməsi mümkün idi. Bu gün bu möhtəşəm Heydər Əliyev Konqres Mərkəzinin konfrans zalında isə 600 nəfərdən çox təhsil işçisi toplaşmışdır. Bu möhtəşəm binada mühüm beynəlxalq konfranslar bir çox dövlət başçılarının iştirak etdiyi tədbirlər keçirilmişdir. Yeni bu yığışdığımız gözəl bina da inkişafımızın bir nümunəsidir. Nəhəng inkişafımızın bu kiçik nümunəsi göstərir ki, Azərbaycan düzgün və uğurlu yoldadır.



Müəllim bu gün əsas öyrədən simadır. Hər birimizin vəzifəsi ulu öndərin yolunu gənc nəslə öyrətməkdir, həm də bu yolu özümüz də dönə-dönə öyrənməliyik. Bu gün iftixarla deyə bilərik ki, ulu öndər Heydər Əliyevin yolu onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Əziz dostlar!**

Dünən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyilə keçən müşavirədə dövlət başçısının qeyd etdiyi kimi bizim müstəqilliyimizə göz dikən, inkişafımızı gözü götürməyən qüvvələr var. Burada iştirak edənlər hamısı ziyalılardır. Biz vətənimizi sizinlə birlikdə göz bəbəyi kimi qorumalıyıq. Bu gün yaxın şərq ölkələrində, qardaş Türkiyədə, Afrikada, elə Avropa ölkəsi olan Ukraynada baş verənləri görürsünüz, xaosdan, anarxiyadan bezən əhalinin miqrant axını dünyanı cənginə alıb. Müharibədən, qırğından, terrordan qaçan insanlar dənizlərin qurbanı olur. Onlar öz torpaqlarında rahat yaşasaydılar Avropaya üz tutmazdılar və müsibətlər də başlarına gəlməzdi. Biz ölkəmizdəki sabitliyin qədrini bilməli, onu pozmaq istəyənlərə layiqli cavablarını verməliyik. Nailiyyətləri qorumaq və inkişaf etdirmək üçün bütün müəllimlər neqativ hallara qarşı tutarlı faktlarla təbliğat aparmalıdırlar. Bizim deməyə sözümüz, görülmüş işlərimiz çoxdur.

Qəbələ rayonu təhsil işçilərinin uğurları çoxdur. Biz artıq neçə illərdir ki, bu uğurların şahidiyik. Bu uğurlar ildən-ilə çoxalır. Burada bu barədə danışıldı.

**Hörmətli təhsil işçiləri!**

Sizin hamınızı bir daha qarşıdan gələn Bilik gününün bayramı və yeni dərs ili münasibətilə təbrik edir, hər birinizə uğurlar və müvəffəqiyyətlər arzulayıram.

---

# Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Oqtay Hacıyevin məruzəsi

(Əvvəli 3-cü səhifədə).

Rayonda istedadlı şagirdlərlə aparılan iş həmişə diqqət mərkəzində saxlanılır. Bu məqsədlə rayon üzrə belə uşaqların istedad bankı hazırlanmış və təhsil şöbəsində yaradılmış "İstedad mərkəzində" onlarla məqsədyönlü iş aparılır. Bu sahədə bəzi məktəblərdə yaradılmış "Kiçik Akademiyaların" da rolu böyükdür. Görülən işlərin, keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, rayonun məktəbliləri respublika səviyyəli müsabiqələrdə, yarışlarda, fənn olimpiadalarında uğurlu nəticələr göstərmişlər. Cari dərs ilində 7 nəfər şagirdimiz fənn olimpiadalarının Şəki şəhərində keçirilən zona yarışlarında birinci yeri tutmuş və respublika turunda iştirak etmək hüququ qazanmışdır. Onlardan beş nəfəri respublika turunun qalibi olmuş, bir nəfər qızıl, bir nəfər gümüş, üç nəfər isə bürunc medala layiq görülmüş və Təhsil Nazirliyi tərəfindən onlara qiymətli hədiyyələr verilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən respublika inşa yazı müsabiqəsində şəhər 3 saylı tam orta məktəbin X sinif şagirdi Nəzirli Məlahət Gündüz qızı qalib gəlmiş və Təhsil Nazirliyinin I dərəcəli diplomu ilə təltif olunmuşdur.

Cari dərs ilində ulu öndər Heydər Əliyevin irsinin və tariximizin öyrənilməsi ilə əlaqədar Heydər Əliyev Mərkəzində təşkil olunan tədris kursları yüksək fəallıq və işguzar diskusiya şəraitində davam etdirilmiş, şagirdlərimiz ulu öndərin bütün sahələr üzrə ensklopedik irsini, həmçinin ölkəmizin tarixini dərindən öyrənmişlər.

Dərs ilinin nəticələrini yekunlaşdırarkən təhsil sahəsində əsas göstəricilərdən birini də məzunlarımızın respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunma səviyyəsi təşkil edir. Bu sahədə rayonumuz son illərdə ardıcıl olaraq respublikamızın qabaqcıl rayonları sırasına daxil olmuş, bu il də həmin ənənəni qoruyub saxlaya bilmişdir. Fərəhlə qeyd etmək lazımdır ki, ali məktəblərə sənəd verən 814 nəfərdən 467 nəfəri tələbə adını qazanmış və onlardan 50 nəfəri 600-dən çox bal toplamışdır. Bu dərs ilində qəbul imtahanlarında ən yüksək nəticəni Vəndam qəsəbə 3 saylı tam orta məktəbin məzunu Əfəndiyeva Xəyalə Rəvan qızı göstərmişdir. III qrupa sənəd verən Xəyalə Əfəndiyeva maksimum nəticə göstərərək Qəbələ rayonunun tarixində ilk dəfə olaraq 700 bal toplamış, Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasına daxil olmuşdur. O cümlədən Həmzəlli kənd tam orta məktəbin məzunu Sıracbəyli Zöhrə Kamran qızı I ixtisas qrupu üzrə 695 bal toplayaraq Qafqaz Universitetinə, şəhər 1 saylı tam orta məktəbin məzunu Şirinbəyli Təranə Seymur qızı IV ixtisas qrupu üzrə 695 bal toplayaraq Azərbaycan Tibb Universitetinə daxil olmuşdur.

Qeyd edim ki, həmin məzunlar Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən qəbul edilərək onlara qiymətli hədiyyələr verilmişdir.

Həmçinin həmin məzunlar Prezident təqaüdünə layiq görülmüşdür. Gəlin konfrans iştirakçıları adından 2015-ci ilin qəbul imtahanlarında yüksək bal toplayan məzunlarımızı, həmçinin tələbə adını qazanan bütün məzunları, onların valideynlərini, bu sahədə əməyi keçən qayğıkeş müəllimlərimizi, səmimi qəlbdən təbrik edək, məzunlarımıza tələbəlik illərində ölkəmizin gələcəyi naminə daha böyük təhsil uğurları arzulayaq.

Dərs ili ərzində şöbədə vətəndaşların qəbuluna, onların ərizə və müraciətlərinə həssaslıqla yanaşılmış və qaldırılan problemlərin vaxtında həll edilməsinə ciddi səy göstərilmişdir. Cari dərs ilində təhsil şöbəsinə 66 müraciət daxil olmuş, 81 nəfər vətəndaş qəbul edilmişdir, onların müraciətləri diqqətlə öyrənilmiş və vaxtında cavab verilmişdir.

Qeyd edim ki, müraciətlərin əksəriyyəti şagirdlərin digər məktəblərə yerdəyişməsi, işə qəbul, təhsil sənədlərinin alınması, əmək haqqılarının hesablanması, qeydiyyata düşmək, uşaqların qəyyumluğa götürülməsi və miqrasiya məsələləri ilə bağlı olmuşdur.

Qəbələ Rayon Təhsil Şöbəsi bundan sonra da vətəndaş müraciətlərinə baxılması və onların şikayətlərinin obyektiv araşdırılmasına diqqətlə yanaşacaqdır.

**Hörmətli konfrans iştirakçıları!**

Son illər təhsil sistemində sürətli yeniliklərin edilməsi, həvəsləndirmə tədbirlərində yeni qaydaların tətbiq olunması, savadlı məzunların müəllimlik sənətini seçməsi, istedadlı tələbələrdən 50-dən artıq ixtisas üzrə SABAH qruplarının yaradılması, fənn olimpiadalarının həm yeni qayda üzrə, həm də obyektiv keçirilməsi və istedadlı şagirdlərin istedadının üzə çıxarılması istiqamətində hörmətli nazirimiz Mikayıl Cabbarovun atdığı addımlar bütün təhsil işçilərinin, valideynlərin, həm də ictimaiyyətin ürəyincədir. Hörmətli nazirimiz dəfələrlə öz çıxışlarında qeyd etmişdir ki, 9, 11 il təhsil alan şagirdin məktəbdən sənəd alması onun hüququdur. Bunun nəticəsidir ki, son 3 ildə rayonumuzda məktəbi bitirən IX və XI sinif şagirdlərinin hamısı təhsil sənədi almışdır.

İstərdim indi də təhsil müəssisələrimizin yeni 2015—2016-cı dərs ilinə hazırlığı ilə əlaqədar görülən işlər haqqında qısa məlumat verim. Qeyd edim ki, RİH-nin yaxından köməkliyi ilə Kötüklü kənd tam orta məktəbi üçün tikilən əlavə sinif otaqları artıq başa çatmış, həmçinin şəhər 3 saylı tam orta, Qəmərvan və Daşca kənd tam orta məktəblərində aparılan təmir işləri isə yekunlaşır. Digər məktəblərimizin hamısında kosmetik təmir işləri aparılmışdır.

Məktəblərin inventar və avadanlıqla təchizatı diqqət mərkəzində saxlanmış yerli büdcə hesabına 204 min 221 manatlıq inventar və avadanlıq alınaraq bölgü əsasında məktəblərə verilmişdir. Həmçinin nazirlik tərəfindən verilmiş 78.504 manatlıq 141 adda pulsuz dərslik məktəb kitabxanalarına çatdırılmışdır.

**Hörmətli konfrans iştirakçıları!**

Tarixən dövlətin gücü, qüdrəti, dünya arenasındakı mövqeyi, onun inkişaf səviyyəsi ilə müəyyən olunur. Bu gün davamlı inkişaf, yüksəliş, modernləşdirmə prosesi biz təhsil işçiləri və müəllimlər qarşısında çox ciddi vəzifələr qoyur. Bunu nəzərə alaraq rayonumuzun çoxsaylı müəllim ordusunun adından dövlətimizi, Azərbaycan Respublikası Təhsil Nazirliyini və Qəbələ Rayon İcra Hakimiyyətini əmin edirəm ki, 2015-2016-cı dərs ilində də pedaqoji kollektivlərimiz bütün gücünü səfərbər edərək yeni dərs ilində qarşıya qoyurmuş vəzifələrin yerinə yetirilməsi, təhsil sahəsində qazanılmış nailiyyətlərin coğrafiyasının genişləndirilməsi məqsədilə daha əzmlə çalışacaqlar.

Çıxışımın sonunda icazə verin sizin hamınızı qarşıdan gələn yeni dərs ilinin başlanması—Bilik bayramı münasibəti ilə ürəkdən təbrik edim, müəllimlərimizə bütün təhsil işçilərinə öz gələcək fəaliyyətlərində uğurlar və can sağlığı arzulayım.